AZAD AZƏRBAYCAN

17 dekabr 2020-ci il №109 (3652)



# Şəhidlər anası

## (Elegiya)

**Qarşımda nurani simalı bir ana əyləşib. Sifət cizgilərində keçirdiyi bütün dərdlər, əzablar aydın görünür. Amma danışığında o qədər müdrik və sakitdir ki, bu vaxt yadıma Nikolay Ostrovskinin bu kəlamı düşür: "Analar hər şeyi görməsələr belə, amma ürəkləri ilə eşidirlər"...**

Bu ailənin necə böyük sarsıntılar, dəhşətli faciələr keçirdiyini mənə polkovnik Heydər Quliyev danışıb. Amma Simuzər ananın sakit və böyük müdrikliklə danışdığı sözlərə qulaq asdıqca, bir an gözlərim qarşısında Azərbaycan analarının simvolu olan böyük Tomris canlanır. Və eyni vaxta yadıma məşhur Mark Tvenin bu sözləri düşür: "Analar arıq və cılız bədənli olsalar da, amma onların çox böyük qəlbləri var".

Məşhur yazıçı elə bil ki, bu sözləri Cimuzər ana haqqında deyib. Simuzər ananı dinlədicə üreyimdən bu sözlər keçir: "O, bugünkü şəhid analarımızın böyük simvoludur. Amma neyçünsə bu ana haqqında demək olar ki, heç nə yazılmayıb".



Mustafayev Sabir İslam oğlu 16.03.1963-ci ildə anadan olmuşdur.Şuşanın Daşaltı kəndində gedən döyüşlərdə itgin düşmüşdür.

Bax buna təəssüflənirəm. Ona görə də belə qərara gəldim ki, Simuzər ana ilə çoxminli oxucularımızı daha yaxından tanış edim.

**Qısa arayış:** Simuzər Camal qızı İbrahimova 1935-ci ilin sentyabr ayının 26-da Zaqatala rayonunun Əliabad kəndində dünyaya gəlib. Artıq ömrünün 85 ilini arxada qoyub. O, dediyinə görə Böyük Vətən Müharibəsinin də ağrılarını, acılarını görüb. Müharibə başlayanda Simuzərin 6 yaşı vardı. Atası müharibədə olduğuna görə, uşaq olsa da hər çətinliyi yaşayıb. Atası müharibədə, anası evdar qadın olan və dörd uşaq böyüdən ailənin necə çətin yaşadığını təsəvvür eləmək heç də çətin deyil.

1945-ci ildə atası Camal kişi müharibədən yaralı qayıdıb. O, müharibədən xəstə qayıtdığı üçün heç bir iş görə bilməyib. Onun həyat yoldaşı Tamam, dörd uşağa qayğı göstərməklə birlikdə Camal kişinin də sağalması üçün dəridən-qabıqdan çıxıb. Ona görə də ev qayğılarına vaxt sərf eləyə bilməyib. Nəhayət ki, Tamam xanımın böyük qayğısı sayəsində Camal kişi bir müddət sonra ayağa qalxıb, işləməyə başlayıb. Belə ki, Camal kişi sağalaraq özünün dərzilik sənətini davam etdirib. Çətinliklə də olsa 1945-47-ci illərdəki aclıq dövrünü də keçib bu ailə. Həmin illərdə artıq balaca Simuzər də məktəbə gedirmiş. Dərslərini də yaxşı oxuyurmuş. Məktəbdə oxuduğu illərdə Simuzər həm də kənddəki meyvə, barama zavodlarında işləyib özünə paltar alırmış. İmkan daxilində ailələrinə də köməklik edirmiş. Məktəbi qurtarandan sonra isə işləməyə başlayıb.

**O, 1955-ci ildə 10-cu sinifi bitirib. Həmin il də "bakılı oğlan" olan İslamla ailə həyatı qurub, Bakı şəhərinin Suraxanı rayonuna köçüb. İndi də Suraxanı rayonu Əmircan qəsəbəsində yaşayır. Amma Simuzər ana heç vaxt doğma kəndləri Əliabadı yaddan çıxarmır. Dediyinə görə gözəl, xoş, qayğısız günlərini yaşadığı dövrlərdə hər yayı Əliabad kəndə gedirdilər. İndi həmin kənddə Simuzər ananın Gülbəzər və Şahizər adlı bacıları yaşayır. Hər ikisi də müəllimədir. Onun qardaşı İbrahim də Bakıda yaşayır. Onlar uzun illər ata evlərinə birlikdə gedirdilər.**

Simuzər ananın həyat yoldaşı İslam Kərim oğlu Mustafayev 1927-ci ilin noyabr ayının 27-də Suraxanı rayonunun 1-ci mədən küçəsində anadan olmuşdu. Onlar əslən Lerik rayonundan idilər. Belə ki, atası Kərəm kişi Lerikdən, anası Sarıgül xanım isə Qərbi Azərbaycanlı idi. İslamın atası Kərəm kişi neft mədənində işləyirdi. İslam kişi də MKT-da rəngsaz işləyib. İslamla Simuzər xanımın ailə qurmasından sonra bu ailədə üç oğul dünyaya gəlib. Adlarını Rəhimxan, Malik və Sabir qoyublar. Ailə çox xoşbəxt yaşayırdı. Onlar hər il yay tətilində uşaqları kəndə göndərirdilər. Uşaqlara orada yaşayan Simuzərin anası Tamam və bacıları baxırdı. Həmin vaxt Simuzər xanım da MKT-də mühasib işləyib. O, avqust ayında məzuniyyətə çıxıb Əliabad kəndinə gedirdi. Onlar, sentyabrda isə Bakıya, evlərinə qayıdırdılar. İslam kişi çox təhsilli olmasa da çox bilikli idi və uşaqlarına tarixdən, coğrafiyadan danışardı. Oğlu Malik deyirdi ki, "mən atamnan söhbət eləyəndə məktəbdə dərsdən 5-qiymətlər alıram". Malik yaxşı oxuyuğu üçün, həmişə divar lövhəsində şəkili olurdu.



Malik şəhid olandan sonra da şəkili divarda qalmışdı. İndi də şəhid şəkli məktəbin divar lövhəsindədir, qardaşı Sabirin şəkili ilə bir yerdədir. İslam kişi və Simuzər xanım üç oğlanlarına baxıb sevinirdilər. Çünki onlar çox ağıllı, tərbiyəli və valideyn qədri bilən idilər. Şəhid olan övladlarının dərdinə dözə bilməyən İslam kişi, 1999-cu ilin dekabr ayının 15-də 72 yaşında dünyasını dəyişdi. Amma İslam kişi də, Simuzər xanım da fəxr edirdilər ki, onların Malik və Sabir kimi belə qəhrəman, igid övladları var. Hansılar ki, Vətən yolunda şəhid olublar. Bu dərd azmış kimi ailənin böyük oğlu Rəhimxan da 2005-ci ilin dekabr ayının 5-də haqq dünyasına qovuşdu. Simuzər xanım bir şeyə sükür edir ki, Rəhimxanın iki balası ona əmanət qalıb. Nərgiz və Elşad hər ikisi evlidir. Onların hər ikisinin də bir qız balası var. Simuzər ana da nəvə və nəticələrinə baxıb onlarla nəfəs alır. Ən maraqlısı budur ki, Simuzər ana heç nədən şikayət etmir. Baxmayaraq şəhidlər anası kimi uzun illərdir onlara ev verilməlidir. Çünki ailə çox darısqal evdə yaşayır. Ev darısqal olduğundan, hətta Elşad məcbur olub ki, öz ailəsi ilə kirayədə yaşasın. Bunu Suraxanı rayon rəhbərliyi bilsə də, hələ bu günə kimi bu aileyə kömək etmək istəmir. Bax bu, adama çox pis təsir edir... Budur əksər Azərbaycan məmurlarının biganəliyi...

***- Simuzər ana. Birinci Qarabağ savaşında sizin iki oğlunuz şəhid olub. Xahiş edirəm onlar haqqında qısa məlumat verin.***

- İlk öncə sizə təşəkkürümü bildirirəm ki, bizim haqqımızda mətbuatda yazırsınız və mənim övladlarımın tarixdə, yazılı ədəbiyyatda yaşaması üçün belə müqəddəs işi görürsünüz. Allah sizi qorusun. Mən illərlə gözləmişəm ki, şəhid övladlarım haqqında yazılsın. Çünki bu da bir təskinlikdir. Oğlum Malik İslam oğlu Mustafayev 1959 -ci ilin dekabr ayının 27-də Suraxanı rayonunun Əmircan qəsəbəsində anadan olub. O, 1992-ci ilin fevral ayının 16-da Xocavənd rayonunun Qaradağlı kəndində qəhrəmancasına döyüşüb və şəhid olmuşdur. Malik qəsəbədəki 114 saylı məktəbi bitirdikdən sonra, 1978-ci ildə hərbi xidməti Sovet ordusunun tərkibində Leninqradda keçmişdi. Orada elə gitara çalmağı da öyrənmişdi. O, yaxşı gitara çalırdı. Hərbi xidmətdən sonra Qum adasında HQÇİ-nin nəzdində olan idarədə işə qəbul olunmuşdu. Orada işlədiyi dövrdə Bakı Neft Texnikumunu da bitirmişdi. Malik Qum adasından Moskvaya Qubkina adına Neft İnstitutuna təhsil almağa göndərilmişdi. Amma 1987-88-ci illərdə ermənilərin azərbaycanlıları öz yurd-yuvasından, Qərbi Azərbaycandan qovduqlarını eşidən kimi Malik təhsilini yarımçıq qoyub Vətənə qayıtdı. Əvvəl Zığda yerləşən Un dəyirmanında işə düzəldi və burada az bir vaxtda hörmət qazandı. Sonra xalq hərəkatının üzvü oldu. Malik 1990-ci il yanvar ayının 17, 18,19-na kimi, Səbail rayonunda polislərlə birlikdə rayonun qorunmasında fəal iştirak edirdi. 1991-ci ildə Malik Ağdama yollandı və mənə dedi ki, onu işdən on günlük ezamiyyətə göndəriblər. Əslində isə o, mənə müqəddəs yalan sataraq, Qarabağa döyüşə yollanmışdı. Elə bil ki, o, sanki məni buna hazırlayırdı. Hər zaman mənə Qarabağdan və ermənilərlə azərbaycanlıların əvvəlki müharibələrindən bəhs ederdi. 1992-ci ilin yanvar ayının 6-da yenə dedi ki, on günlüyə Ağdama gedir. Ağlıma belə gəlmədi ki, yenə də məni aldadır. Demə artıq döyüşə gedirmiş. O, gedəndən sonra hər yerdən zənglər gəldi ki, Malik Qarabağa döyüşə gedib. Malik o gedən oldu. Bir daha onu görmədim. Malik elə yerdə idi ki, yanına da getmək belə olmurdu. Xocavəndin Qaradağlı istiqamətində şiddətli döyüşlərdə iştirak edirmiş. Elə orada da şəhid olub. Biz bunu çox sonralar bildik.

Sabir isə 1963-cü ilin mart ayının 16-da anadan olmuşdu. O da 114 saylı məktəbin 8-ci sinifini bitirəndən sonra, bir müddət ATS-də işlədi. 1980-ci ildə hərbi komissarlıq xətti ilə sürücülük peşəsinə yiyələndi. 1981-84-cü illərdə, Sovet ordusunun tərkibində, Aşqabadın Çarcou və Karakalpak şəhərlərində xidmət etmişdi. Sabir 1984-cü ildə ordudan qayıdandan sonra, Suraxanı rayonun NQÇİ-nin tərkibində sürücü vəzifəsində çalışırdı. O vaxtlar bizim ailə çox xoşbəxt idi, Çünki övladlarımızın hər üçü işləyir və özlərinin əmək haqlarını evə gətirirdilər. Valideyn üçün də bundan böyük xoşbəxtlik olardımı? Qarabağ müharibəsi başlayan vaxtdan bizim ailənin də gərgin günləri başladı. İlk əvvəl Malik və sonra Sabir Qarabağ döyüşlərinə getdi. Sabir, 1991-ci ilin dekabr ayının 22-də Hərbi Komissarlığa yollandı. Könüllü olaraq hərbi xidmətə yazıldı. Sonra da Vətəni qorumaq üçün Qarabağa getdi. Onu müharibəyə getməmişdən əvvəl, bir ay Şıxovda hərbi təlim keçməyə göndərdilər. Sonra Şuşaya yollandı. Oradan da 1992-ci ilin yanvar ayının 26-da Daşaltı əməliyyatına göndərilib. 1992-ci ilin yanvar ayının 26-da Sabir, Daşaltı əməliyyatında itkin düşdü. Komandirə xəbər göndərdim ki, Sabir itkin düşüb, heç olmasa Malikin yerini bizə deyin. O da cavab verdi ki, demişəm amma gələ bilmir. Sonralar bildik ki, Malik Qaradağlıda kəşviyyatçı kimi xidmət edirmiş. Bu kənddə on nəfər milli ordunun uşaqları var imiş. Onlar, yerli adamlarla kəndi qoruyurmuşlar. Amma ermeni gavurları 100-dən çox imişlər və həm də silah-sursatları çox imiş.

Mustafayev Malik İslam oğlu 27.12.1959-cı anadan olmuşdur.16.02.1992 ci il Xocavəndin Qaradağlı kəndində gedən döyüşlərdə şəhid olmuşdur



1992-ci ilin fevral ayının 15-də ermeni işğalçılarıyla iki günlük güclü döyüşlərdə onların silah-sursatları qurtarır və bu qeyri-bərabər döyüşdə Malikgilin kiçik dəstəsi böyük itki verirlər. Ermənilər onların öldürəni öldürür, qalanlarını da maşınlara yığıb aparmaq istəyəndə, bu dəstəyə məhz Malikin rəhbərlik etdiyini bilib, onu maşından düşürüb şəhid edirlər. Bütün bunları mənə, Maliklə bir yerdə döyüşən və əsir götürülən Qax rayonun Zəyəm kəndindən olan, Bayram danışıb. Maliklə Bayram orada dost olublar. Bayram 1992-ci ilin aprelində kənd adamlarıyla bir yerdə, çox pis vəziyyətdə dəyişdirildi. Həmin vaxt özümdə olmadığı üçün Malik barədə mənə çox gec danışdı. İndi siz təsəvvür edin mən nə hisslər keçirmişəm. Bunu söznən ifadə etmək olmaz. İki şəhid övladı olan bir ana üçün bunları danışmaq çox çətindir. Çünki artıq 85 yaşım var. Bütün bu illərdə həyat yoldaşımın və övladlarımın xatirəsi ilə yaşayıram. Hələ də səbirsizliklə Daşaltı əməliyyatında itkin düşən Sabirimin yolunu gözləyirəm... Fikirləşirəm Birinci Qarabağ savaşında əsir düşənləri də yəqin geri qaytararlar... Ola bilər mənim Sabirim də sağdır.

***- Birinci Qarabağ savaşında məğlub olmağımız Sizə bir şəhidlər anası kimi necə təsir edirdi?***

- Əlbəttə, çox pis təsir edirdi. Fikirləşirdim ki, bu müharibədə 20 mindən çox şəhid vermişik və əvəzində torpaqlarımız da işğal altındadır. Amma daxilimdə bir ümid vardı ki, işlər belə gedə bilməz. Biz hökmən həmin şəhidlərimizin qisasını alıb, torpaqlarımızı ermeni gavurlarından azad etməliyik. Elə bil Böyük Tanrı biz şəhid analarının səsini eşitdi. Mən Birinci Qarabağ müharibəsində yaşadığım həmin o hissləri, ikinci müharibədə də yaşadım deyə, daha çox həyəcan keçirdim. Gecələri gözümə yuxu belə getmədi. Çünki, bütün baş verənlər mənə çox təsir edirdi. Amma öz-özümə təsəlli verirdimki, torpaqlarımız düşmən işğalından qurtarılacaq. Hər bir kəndimizin, rayonumuzun işğaldan azad olunmasına çox sevinirdim. Allaha şükürlər olsun ki, Birinci Qarabağ müharibəsində, silahsız, ac-susuz döyüşən igidlərimizin və eləcə də bütün şəhidlərimizin qanı yerdə qalmadı. Şəhidlərimizin ruhları şad oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin və bizlərə də can sağlığı versin ki, şəhidlərin adlarını yaşada bilək. Ali Baş Komandanımız cənab prezident İlham Əliyev və igid Ordumuza, Azərbaycan xalqına təşəkkürlərimi bildirirəm. Əsas odur ki, xalqımız haqsızlığın qarşısında əyilmədi. Burada Həzrət İmam Əlinin bu sözləri yadıma düşdü: "Haqsızlığın qarşısında əyilməyin. Çünki haqqınızla birlikdə şərəfinizi də itirərsiniz". Xalqımız öz haqqı ilə birlikdə, şərəfini də qoruyub, bütün dünya xalqlarına nəyə qadir olduğumuzu sübut elədi.

***- Analar müharibəyə nifrət edirlər. Bunun səbəbi nədir? Müharibə olmaması üçün dünya analarına nə demək istərdiniz?***

- Heç bir ana və ya ata istəməz müharibə olsun və övladı şəhid olsun. Şəhərlərimiz, kəndlərimiz viran qalsın. Amma müharibələr olur. Bütün şəhid anaları və xanımları da bu dəhşətli faciələrə bir təhər dözürlər. Biz qadınlar çox güclüyük. Allah bizə dözüm verib. Ona görə müharibələrin qarşısını almaq üçün bütün dünya anaları birləşməli və müharibə törədənlərə qarşı öz etiraz səsini ucaltmalıdırlar. Bəlkə bundan sonra müharibələr dayana. Bizim şəhid ailələrinin bir qrupumuz var. Belə adlanır. Şəhid Ailələrinin Müdafiə Cəmiyyəti. Bu cəmiyyətə də çox xeyirxah, bacarıqlı xanım olan Nəsibə Əliyeva rəhbərlik edir. Kimin nə dərdi var ora gəlir və biz dərdlərimizi orada bölüşürük, bir-birimizə dayaq oluruq. Onların çoxu gəlinlərdi, məndə onların anası. Əlbəttə, yaxşı olar ki, Azərbaycandakı bütün şəhid analarını və ərlərini, qardaşlarını itirən xanımlar bir yerə yığışıb, bütün dünya analarına bir müraciət hazırlasınlar. Mən inanıram ki, bu müraciəti ölkə başçımız cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva da yaxşı qarşılayar. Bu müraciət yəqin ki, dünyada da yaxşı qarşılanar. Çünki gec-tez bu müharibə adlı dəhşətli faciənin qarşısı alınmalıdır.



Silahlar yandırılmalıdır. Mən əvvəllər fikirləşirdim ki, uşaqlara bir şey olsa ölərəm, ancaq ölmədim və yarıcan olsam da yaşayıram. Heç vaxt ürəyim tam sevinmir, üzüm gülmür. Özümə bir təsəllim vardı ki, sükür Allaha böyük oğlum Rəhimxan var, məni yerdən götürər. 2005-ci ildə Allah onu da məndən aldı... O, atasının, qardaşlarının vaxtından tez haqq dünyasına getməsinə dözə bilmədi... Üç oğul böyüdən və bu gün onların heç biri yanında olmayan ana necə ola bilər?.. (Daha o, heç nə deməyib susdu və kövrəldi)...

*P.S. Artıq Simuzər ana ilə söhbət eləyə bilmədim. Çünki özüm də kövrəlmişdim. Amma söhbət əsnasında onu da öyrəndim ki, bütün bu illərdə Suraxanı rayon İcra Hakimiyyətinin hec bir nümayəndəsi gəlib Simuzər anaya baş çəkmir. Yalnız 2020-ci ilin sentyabr ayının 26-da Simuzər ananın 85 illik yubileyində onun özünə oğul götürdüyü polkovnik Heydər Quliyevlə birlikdə İcra Hakimiyyətindən Əziz müəllim adlı bir şəxs gəlibmiş. Onlar gəlib Simuzər ananı təbrik ediblər. Çox sağ olsunlar. Səhəri günü isə, yəni sentyabr ayının 27-də Böyük Vətən Müharibəsi başladı. Simuzər ana deyir ki, "Heydər də, səhər gəlib mənnən görüşüb müharibəyə yollandı . Şükürlər olsun ki, sağ-salamat qayıtdı. Allah bütün yaxşı insanları qorusun. Heydər mənə oğul əvəzidir və hər işdə də mənə arxa, dayaqdır".*

*Simuzər ana, Böyük Mövlana deyir ki, "dərdlər bir gecədir. Səbr et, kədərlənmə. Sabah mütləq olacaq". Bəli, biz də inanırıq ki, sabah hökmən olacaq. Yəqin ki, Suraxanı rayonunun rəhbərləri də sizinlə maraqlanacaq. Allah sizə də böyük səbr versin!..*

**Ağalar İDRISOĞLU**